# TWINNING NEWSLETTER

**Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək**

5-ci buraxılış, sentyabr 2021-ci il

**Mövzular**

- ✓ SVDR proqram təminatının yenilənməsi və genişləndirilməsi və 5 yeni məlumat mənbəyinin daxil edilməsi
- ✓ Yeni KOB hesabatının planlaşdırılması
- ✓ RTM-in gəlişi/Texniki görüş
- ✓ Layihə İdarəetmə Komitəsinin 5-ci görüşü
- ✓ Aralıq işıqlandırma tədbiri
- ✓

**Gələcək fəaliyyətlər**

- ✓ 5 yeni inzibati məlumat mənbəyinin SVDR proqram təminatına daxil edilməsi
- ✓ Yeni KOB hesabatının nəşrinin dəstəklənməsi
- ✓ SBS üzrə hədəflənən istehsal prosesi
- ✓ Təlim: Biznes sorğularının hazırlanması prosesi
- ✓ Təlim: KOB məlumatları və statistikası üzrə təhlil və proqnozlaşdırma üsulları
- ✓ Tədris səfəri
- ✓ Layihə İdarəetmə Komitəsinin 6-ci İclası

## Layihə barədə

Aİ tərəfindən maliyyələşdirilən bu Tvinninq layihəsi (AZ/16/ENI/ST/01/19 (AZ/53)) Finlandiyanın Statistika İdarəsinin rəhbərlik etdiyi və Litvanın Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosunun kiçik tərəfdaş kimi daxil olduğu **konsorsium** tərəfindən həyata keçirilir. Həmçinin Danimarkanın Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutu layihəyə əlavə dəstək təmin edir.

**Əsas benefisiar təşkilatlar** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Tvinninq laihəsinin **ümumi məqsədi** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarətdir.


**Nəşr etdi:** Tvinninq ofisi


**Ünvan:** İnşaatçılar prospekti 81, Bakı şəhəri, AZ 1136
Tel: +994 12 377 10 70
**Veb-səhifə: http://www.stat.fi/aztwinning**
**Bizi izləyin:**
**Xəbər bulletenimizə abunə olmaq istəyirsinizsə, gultakin.babayeva@stat.fi e-poçtuna müraciət göndərməyinizi xahiş edirik.**


## Layihə xəbərləri

14 Sentyabr 2021 -ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin binasında layihə rəhbəri cənab Qasım Əliyev (DSK), RTM-in tərəf müqabili xanım Aytən Nərimanlı (DSK), Komponent 1 üzrə cavabdeh şəxs cənab Vüqar Məmmədəlizadə (DSK), layihə koordinatorları Eldar Babazadə (DVX), xanım Aytan Şahmarova (DVX) və layihənin hədəf qrupuna daxil olan digər vergi işçiləri, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndəsi cənab Elmar İsayev, RTM cənab Ville-Matti Pilviö və RTM-in köməkçilərinin iştirakı ilə **işçi görüş** keçirildi. Cənab Pilviö layihənin icra müddəti, tamamlanmış və planlaşdırılan fəaliyyətlər, işıqlandırma tədbiri və tədris səfərlərinə dair təqdimat etdi. Cənab Pilviö həmçinin indiyədək əldə edilən nəticələr barədə məlumat verdi, BÖ iştirakçıları isə layihənin qalan icra müddəti ilə bağlı gözləntilərini ifadə etdilər. Rəsmi tədbir qeyri-rəsmi müzakirələrlə davam etdi.



20-23 iyun 2021-ci il tarixində **"Statistik Vahidlərin Dövlət Reyestrinin yenilənməsi və genişləndirilməsi və 5 yeni məlumat mənbəyinin daxil edilməsi" adlı 3.2.A saylı Fəaliyyət** baş tutmuşdur. Missiya Litva Statistika Departamentinin ekspertləri Nadejda Fursova və cənab Maksim Lata iştirakı ilə Azərbaycan Respublikası Dövlət Statistikasının binasında həyata keçirilmişdir. Missiyanın məqsədi beş yeni inzibati məlumat mənbəyinin rəsmi statistikanın istehsalı üçün əlavə edilməsi və yeni İM mənbələrinin, eləcə də onların Statistik Biznes Prosesinə inteqrasiyası imkanlarının təhlil edilməsindən ibarət olmuşdur. Dörd gün davam edən missiya ərzində Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəsmiləri və QME-lər beş yeni məlumat mənbəyinin strukturunu, eləcə də dövlət və idarə reyestrlərinin yaradılması, qurulması və fəaliyyətini tənzimləyən hüquqi aktları müzakirə edərək nəzərdən keçirdilər. Fəaliyyət nəticəsində ekspertlər yeni İM mənbələrinin inteqrasiyası prosesinin təsvirinin aparılmasına dair tövsiyələr hazırlayaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim etmişlər.


**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



**“Yeni KOB hesabatının planlaşdırılması” adlı 5.4.A saylı Fəaliyyət** 2021-ci ilin sentyabr ayının son həftəsində həyata keçirilmişdir. Fəaliyyət Finlandiya Statistika İdarəsindən xanım Merja Myllymäki və Danimarka Statisika İdarəsindən cənab Michael Elgaard Nielsen tərəfindən həyata keçirilmişdir. Missiyanın məqsədi Aİ/İƏİT-nin təriflərinə uyğun olan illik KOB statistikası hesabatının hazırlanması, təqdimatı və yayımlanmasından ibarət olmuşdur.

Dörd günlük missiya müddətində ekspertlər KOB hesabatının genişləndirilməsi, qrafiklər, illik dəyişiklər, analitik mətnlər və metodoloji/keyfiyyətə dair təsvirlərin planlaşdırılmasına dair təqdimatlar etdilər. QME-lər və BÖ-dən olan tərəf müqabilləri yeni KOB hesabatı üçün cədvəllər, eləcə də göstəricilər və onların yeni KOB hesabatında əks olunmasına dair müzakirələr apardılar.

Finlandiya Statistika İdarəsindən cənab Tuomas Lehto missiyaya distant şəkildə qoşularaq məlumatların vizuallaşdırılması alətlərinə dair təqdimat etdi və DSK və Finlandiya Statistika İdarəsinin məlumatlarından istifadə edərək məlumatların vizuallaşdırılması imkanlarını nümayiş etdirdi.

Missiyanın sonunda ekspertlər missiya hesabatı hazırladılar və yeni hesabatın hazırlanması prosesinə dair tövsiyələr və məzmununa dair təkliflər verdilər.



Tvinninq layihəsinin **İdarəetmə Komitəsinin beşinci iclası** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində keçirilmişdir. 4 oktyabr 2021-ci il tarixində baş tutan iclasda böyük və kiçik layihə rəhbərləri, Aİ Nümayəndəliyinin və Layihələrin İdarəedilməsi Ofisinin nümayəndələri, komponent rəhbərləri, Rezident Tvinninq müşaviri və BÖ-dən maraqlı tərəflər iştirak etmişdir. Səyahətlərə qoyulan məhdudiyyət səbəbindən Niderland Mərkəzi Statistika Bürosundan olan kiçik layihə rəhbəri və 3-cü Komponentin rəhbəri görüşə distant formatda qatıldılar. İclasda aşağıdakı mövzular müzakirə edilmişdir:

- Kommunikasiya və İşıqlandırma Planına dair qısa məlumat (RTM tərəfindən)
- Layihənin gedişatına dair hesabat
- BÖ LR tərəfindən layihənin gedişatına dair məlumat
- Layihənin növbəti mərhələsində həyata keçirilməsi planlaşdırılan fəaliyyətlərin təqdimatı və müzakirəsi
- Tövsiyələr və İş Planının təsdiqlənməsi
- Büdcə və maliyyə vəsaitlərinin müvafiq istiqamətlərə yönləndirilməsi
- İnsan resursları, razılıq məktubları və əlavələr
- Layihə cədvəli
- Fəaliyyətlərə dair verilən rəylərin icmalı

İclasın sonunda komitə üzvləri planlaşdırılan fəaliyyətlər və tədris səfərləri ilə bağlı fikirlərini ifadə etdilər. İştirakçılar layihənin nəticələrini yüksək qiymətləndirdilər və qarşıya çıxan çətinlikləri müzakirə etdilər.



2021-ci il 5 oktyabr tarixində “Hyatt Regency Baku” mehmanxanasında Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək” Tvinninq layihəsi çərçivəsində **aralıq işıqlandırılma tədbiri** keçirilmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini cənab Rauf Səlimov, Avropa İttifaqının Azərbaycan Nümayəndəliyinin Əməkdaşlıq Məsələləri üzrə rəhbəri cənab Viktor Bojkov, Litva Respublikasının fövqəladə və səlahiyyətli səfiri cənab Egidijus Navikas, Niderland Krallığının fövqəladə və səlahiyyətli səfiri xanım Raulina Eizema, Finlandiya Statistika İdarəsinin Beynəlxalq Məsələlər üzrə direktoru cənab Timo Koskimäki və digər qonaqların iştirak etdiyi görüşə layihənin ÜD-dən olan Layihə rəhbəri xanım Hannele Orjala sədrlik etmişdir.

Kiçik layihə rəhbərləri xanım Raimonda Simiene (Litva Statistika Departamenti) və xanım Carina Fransen (Niderland Mərkəzi Statistika Bürosu – görüşə onlayn qoşulmuşdur), Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Proqram İdarəetmə Ofisinin nümayəndələri və benefisiar təşkilatların rəsmiləri, ümumilikdə qırx iştirakçı tədbirdə iştirak etmişdir.

Beş rüb ərzində layihə distant formatda həyata keçirilmişdir. Aralıq işıqlandırma tədbirinin məqsədi məlumat mübadiləsi, biznes statistikası/KOB statistikası istehsalı və layihəyə cəlb olunan dövlət qurumlarının potensialının artırılması üzrə əldə olunan nailiyyətlərlə tanış olmaqdan ibarət olmuşdur. 2021-ci ilin sentyabr ayından etibarən layihənin fəaliyyətləri üzbəüz formatda keçirilir və Dövlət Statistika Komitəsində artıq iki missiya müvəffəqiyyətlə həyata keçirilmişdir.



**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir